**UOT: 336.67, 338.43**

# AQRAR SAHƏDƏ AUDİT FƏALİYYƏTİNİN ROLU

**Nərgiz Tofiq qızı Həsənova**

***Azərbaycan Dövlət Aqrar Universiteti***
***e-mail: nargizaliyeva@inbox.ru***

***Xülasə***

*Məqalədə aqrar sahədə audit xidmətlərinin təşkili məsələlərinə baxılır. Göstərilir ki, kənd təsərrüfatı sektorunda müəssisənin müstəqil sahibkarlıq subyekti statusunun gücləndirilməsi məqsədi ilə onun fəaliyyətinə nəzarətin həyata keçirilməsinə prinsipcə yeni yanaşmalara ehtiyac duyulur. Bu istiqamətdə səmərəsiz daxili nəzarətin tədricən aradan qaldırılması və müstəqil audit xidmətlərinin yaradılmasına zərurət yaranır.*

***Açar sözlər:*** *audit, audit xidməti, kənd təsərrüfatı, maliyyə, daxili nəzarət.*

## Giriş

Hazırki şəraitdə alimlər (məsələn, V.V. Nitetski) post-sosialist ölkələrdə audit xidmətinin yaradılması üçün ilkin şərtləri araşdırarkən bunlardan milli iqtisadiyyatda mülkiyyət formalarında, təsərrüfatçılığın təşkilati-hüquqi əsaslarında və idarəetmə strukturunda dəyişikliklər olduğunu qeyd edirlər. Bazar şəraitində dövlətlərin təşkilatların maliyyə fəaliyyətlərinə müdaxiləsi məhduddur. Səhmdarlar və ya özəl mülkiyyətçilər tərəfindən satın alınması ilə müəssisələrin maliyyə fəaliyyətinin səmərəliliyi, mühasibat və hesabatların etibarlılığı ilə maraqlanan yeni subyektlər meydana çıxdı [5, s. 25].

## Kənd təsərrüfatında audit fəaliyyətinin əhəmiyyəti

Müasir şəraitdə kənd təsərrüfatı sektorunda audit fəaliyyəti bir neçə vəzifəni yerinə yetirməlidir:

- *mühasibat (maliyyə) hesabatlarının etibarlılığını və onların maliyyə və təsərrüfat əməliyyatlarının qüvvədə olan hüquqi və normativ aktlara uyğunluğunun müəyyənləşdirilməsi;*
- *maliyyə və təsərrüfat fəaliyyətinin təhlili, eyni zamanda təsərrüfat subyektinin aktiv və öhdəliklərinin qiymətləndirilməsi;*
- *təşkilatların mövcud qaydalara, hüquqi statusuna və təsis sənədlərinə uyğunluğunu müəyyənləşdirmək üçün mühasibat və maliyyə hesabatlarının araşdırılması.*

Auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat subyektlərinin mühasibat (maliyyə) hesabatlarının düzgünlüyünü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdir [5, s. 15].

Deməli, auditin təyin edilməsi aşağıdakı məqsədlə maliyyə hesabatlarının yoxlanılması deməkdir:

- *hesabatların düzgünlüyünün təsdiqi və ya qeyri-düzgün olmasının müəyyən edilməsi;*
- *yoxlanılan dövrdə məsrəflərin, gəlirlərin və fəaliyyətin maliyyə nəticələrinin uçotda və hesabatda dolğun, düzgün və dəqiq əks etdirilməsinin yoxlanılması;*
- *uçotun aparılması və hesabatların tərtib edilməsi qaydalarını tənzimləyən qanunvericiliyə və normativ sənədlərə, aktivlərin, öhdəliklərin və xüsusi kapitalın qiymətləndirilməsi metodologiyasına əməl olunmasına nəzarət;*
- *əsas və xüsusi dövriyyə vəsaitlərindən, maliyyə ehtiyatlarından və borc mənbələrindən daha yaxşı istifadə imkanlarının üzə çıxarılması.*

Kənd təsərrüfatı təşkilatlarında iflas, təsərrüfat subyektlərinin səhmdarları, investorları qarşısında öhdəliklərini yerinə yetirməmək halları mövcuddur. Nəticə etibarilə maraqlı tərəflər bir çox hallarda iqtisadi fəaliyyətin həcminin azalmasının əsl səbəbləri barədə məlumat ala bilmir və kənd təsərrüfatı təşkilatlarının iflas səbəbləri barədə etibarlı məlumata sahib olmurlar. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, auditor yoxlaması məcburi və ya könüllü (təsərrüfat subyektinin öz təşəbbüsü ilə) ola bilər. Qanuna görə, öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburi, digər hallarda isə könüllüdür [1].

Audit xidməti, maliyyə hesabatlarının etibarlılığını təsdiqləməklə yanaşı, auditlə əlaqəli xidmətlər də göstərə bilər:

- *mühasibat uçotunun bərpası və aparılması,*
- *maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsi,*
- *konsaltinq xidmətləri;*
- *vergi konsaltinqi;*
- *idarəetmə üzrə məsləhət;*
- *hüquqi konsaltinq;*
- *iqtisadi və maliyyə konsaltinqi;*
- *mühasibat və informasiya texnologiyalarının tətbiqinin avtomatlaşdırılması.*

Maliyyə hesabatlarının etibarlılığının və fərdi sahibkarlar kimi müstəqil fəaliyyət göstərən auditor firmalarının və auditorların konsaltinq fəaliyyətinin təminatı qeyri-dövlət sektorunda maliyyə nəzarətini dərinləşdirir və genişləndirir. Bu baxımdan, məsələn, auditorlar tərəfindən təsdiqlənmiş maliyyə hesabatları istifadəçilər (investorlar, borc verənlər və s.) tərəfindən müxtəlif əməliyyatlarla bağlı qərarlar qəbul etmək üçün məlumat mənbəyidir (kreditlərin verilməsi, investisiyaların qoyulması və s.) [4, s. 54]. Auditorların konsaltinq fəaliyyətinə gəldikdə, bu maliyyə mexanizminin optimallaşdırılmasına kömək edir. Audit praktikasında yüksək keyfiyyətli yoxlamalar üçün vahid audit qaydaları (standartları) tətbiq olunur. Bunlar audit fəaliyyətinin tənzimlənməsi üçün ən vacib vasitələrdən biridir. Standartların əhəmiyyətini qiymətləndirən yerli alimlər bunları qeyd edirlər:

- *auditin yüksək keyfiyyətini təmin edirlər;*

- *audit praktikasına yeni elmi nailiyyətlərin tətbiq olunmasına töhfə verirlər;*
- *istifadəçilərə audit prosesini başa düşmələrinə kömək edirlər;*
- *peşə haqqında ictimai imic yaradırlar;*
- *auditora müştəri ilə danışıqlar aparmaqda kömək edirlər;*
- *audit prosesinin ayrı-ayrı elementləri arasında əlaqə yaradırlar.*

Maliyyə uçotu məlumatları və digər hər hansı bir məlumat daxili audit üçün nəzarət obyekti kimi xidmət edir. Daxili audit istehsal metodlarını qənaət, məhsuldarlıq və səmərəlilik üçün qiymətləndirir. Bütün maliyyə və iqtisadi fəaliyyətlərə daxili audit nəzarət edir.

Daxili auditdə istifadə olunan alətlərə daxili nəzarət sisteminin qiymətləndirilməsi, daxili maliyyə və idarəetmə hesabatlarının yoxlanılması və qiymətləndirilməsi, kooperativ təşkilatlar siyasətinin həyata keçirilməsini təmin edən nəzarət sisteminin təhlili, maliyyə planlarının təhlili aid edilir.

Daxili auditin əsas funksiyaları bunlardır:

- *daxili qaydalar və nəzarət prosedurları sisteminin yetərliliyinin yoxlanılması;*
- *hesablama intizamına uyğunluğun yoxlanılması:*
- *mühasibat uçotu metodikasının və texnikasının, maliyyə hesabatlarının etibarlılığının araşdırılması.*

Faydalı daxili nəzarət sistemi rəhbərliyə təşkilatın fəaliyyətinin qanunvericiliyin tələblərinə, müəssisənin fəaliyyətinin daxili təlimatlara, qəbul edilmiş idarəetmə siyasətinə uyğun olmasına imkan verir. Beləliklə, şöbələr və müxtəlif fəaliyyət sahələri ilə əks əlaqə təmin olunur [8].

**Nəticə**

Zamanla müəssisələrin miqyası genişləndikcə və təsərrüfat fəaliyyətlərinin mürəkkəbliyi ilə daxili auditin xarakteri dəyişir. Audit, müəyyən edilmiş prosedurlardan kənarlaşmaların adi fiksasiyası istiqamətində deyil, daha çox və daha fəal şəkildə bu sistemlərə və prosedurlara daxil olaraq onlara düzgün bir qiymət vermək üçün inkişaf etməyə başlamışdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının “Auditor xidməti haqqında” Qanunu. Bakı, “Qanun” -1994.
2. Azərbaycan Respublikasının “Daxili audit haqqında” Qanunu. Bakı, “Qanun” -2007.
3. Audit standartları. Azərbaycan Respublikası Hesablama Palatası. “Mars-Print” nəşriyyatı -2003.
4. Hacıyev F.Ş., Əliyev Ş.H. “Audit”. Dərs vəsaiti, Bakı, “İndiqo” nəşriyyatı. 2011.
5. Novruzov V.T. və başqaları. “Audit”. Dərs vəsaiti. Bakı, 2012.
6. Rzayev Q.R. Nəzarət və təftiş (dərslik) Bakı, “Adiloğlu” nəşriyyatı, 2011.
7. Алборов Р.А., Хоружий Л.И. и другие. Основы аудита. Москва, «Дело и сервис» 2010.
8. Миннигалеева В.З. Роль аудиторской деятельности в аграрном секторе // Научно-методический электронный журнал «Концепт». - 2017. - Т. 31. - С. 156–160. http://e-koncept.ru/2017/970046.htm.

N.T. Hasanova

Azerbaijan State Agrarian University

**Role of auditing in agriculture**

*Summary*

*The issues of audit services in the agricultural sector are being addressed in the article. It is indicated that in order to strengthen the status of an independent enterprise in the agricultural sector, new approaches are needed in principle to control its activities. In this direction, there is a need for gradual elimination of ineffective internal control and creation of independent audit services.*

***Keywords:*** *audit, audit services, agriculture, finance, internal control.*

Н.Т. Гасанова

Азербайджанский государственный аграрный университет

**Роль аудиторской деятельности в сельском хозяйстве**

*Резюме*

*В статье рассматривается организация аудиторских услуг в аграрном секторе. Отмечается, что для укрепления статуса предприятия как независимого субекта предпринимательства в аграрном секторе необходимы принципиально новые подходы к контролю его деятельности. В связи с этим необходимо постепенно устранять неэффективный ведомственный контроль и создавать независимые аудиторские службы.*

***Ключевые слова:*** *аудит, аудиторские услуги, сельскоехозяйство, финансы, внутренний контроль.*